**Azərbaycan MEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**
**Azərbaycan mühacirət ədəbiyyatı şöbəsinin 2018-ci ildəki**
**elmi və elmi-təşkilati fəaliyyəti haqqında**
**HESABATI**

Azərbaycan mühacirət ədəbiyyatı şöbəsinin 2018-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinin əsas nəticələri aşağıdakılardır:

**Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının icrası ilə bağlı tapşırıqların yerinə yetirilməsi haqqında məlumat**

Azərbaycan Respublikası Prezidentinin **«Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında»** 16 may 2017-ci il və **«2018-ci ilin Azərbaycan Respublikasında «Azərbaycan Xalq Cümhuriyyəti İli» elan edilməsi haqqında»** 10 yanvar 2018-ci il tarixli Sərəncamlarının icrası ilə əlaqədar olaraq, şöbədə aşağıdakı işlər yerinə yetirilmişdir:

1. Fevralın 7-də İnstitutda «Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası» seriyasından növbəti cildin – Ceyhun Hacıbəylinin «Seçilmiş əsərləri»nin (Bakı: Elm, 2017, 23 ç.v.) təqdimat mərasimi keçirilmişdir. Mərasimi giriş sözü ilə İnstitutun direktoru, akademik İsa Həbibbəyli açmış, şöbənin aparıcı elmi işçisi, fil.f.d. Abid Tahirli «Ceyhun Hacıbəylinin əsərlərinin nəşri tarixindən» mövzusunda məruzə etmişdir. Tədbirdə daha sonra Azərbaycan MEA-nın müxbir üzvü Tehran Mustafayev, fil.e.d.,prof. Vüqar Əhməd, fil.e.d. Nikpur Cabbarlı və b. çıxış etmişlər.

2. Şöbə müdiri, fil.e.d., dos. Nikpur Cabbarlı Türkiyə Respublikasının Ankara Universitetinin Türk Tarix Qurumu ilə birgə cari il mayın 28-dən 31-dək Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirdiyi Beynəlxalq elmi simpoziuma qatılaraq, «Mirzə Bala Məhəmmədzadənin bədii yaradıcılığında milli istiqlal məfkurəsinin inikası» mövzusunda məruzə etmiş, eyni zamanda, simpoziumun «Fətəli Xan Xoyski» oturumunun həmsədri olmuşdur.

3. «Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası» seriyasından Hilal Münşinin «Azərbaycan Respublikası (tarixi-siyası oçerk)» kitabı çapa hazırlanmışdır.

4. Şöbənin aparıcı elmi işçisi, fil.f.d., dos. Şahbaz Şamıoğlunun (Musayev) hazırladığı «Nağı Şeyxzamanlının «Azərbaycan istiqlal mücadiləsinin xatirələri» əsərində Cümhuriyyət qurucularının bədii-sənədli obrazı» adlı məqalə Azərbaycan MEA-nın «Xəbərlər»inə (humanitar elmlər seriyası) çapa təqdim edilmişdir.

5. Şöbənin aparıcı elmi işçisi (0,5 ş.v.), fil.f.d. Abid Tahirlinin hazırladığı «İsmayıl Saryalın «Bakı rüzgarı» əsərində milli istiqlal mücadiləsinin inikası» adlı məqalə Azərbaycan MEA-nın «Xəbərlər»inə (humanitar elmlər seriyası) çapa təqdim edilmişdir.

6. Şöbənin aparıcı elmi işçisi (0,5 ş.v.), fil.f.d. Abid Tahirli martın 16-da «İçərişəhər» Dövlət Tarix- Memarlıq Qoruğu İdarəsinin konfrans zalında keçirilmiş «İstiqlal mücahidləri: mühacirətdə yaşayan Cümhuriyyət» mövzusunda dəyirmi masada «Mühacirət ədəbi irsi milli-mədəni sərvətimizdir» mövzusunda çıxış etmişdir.

Azərbaycan Respublikası Prezidentinin **«1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında»** 18 yanvar 2018-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq, şöbənin aparıcı elmi işçisi, fil.f.d., dos. Şahbaz Şamıoğlunun (Musayev) hazırladığı «Azərbaycanlıların soyqırımı

mühacirət nəsrində (Məmməd Altunbayın «Azadlığa uçan türk» memuarı əsasında)» məqaləsi «Azərbaycan ədəbiyyatşünaslığı» jurnalına çapa təqdim edilmişdir.

**Elmi tədqiqat işləri**

Təsdiq olunmuş elmi tədqiqat planına uyğun olaraq, cari ildə şöbədə 2.8. «Azərbaycan mühacirət ədəbiyyatı» mövzusu üzrə bir sıra işlər yerinə yetirilmişdir:

**2.8.1. «Azərbaycan ədəbiyyatı tarixi»nin VII cildi üçün:** «Almas İldırım» portret-oçerki (icmal, 1 m.v.), (icraçı: şöbə müdiri, fil.e.d., dos. Nikpur Cabbarlı) işi tamamlanmışdır.

**2.8.2. «Əhməd Ağaoğlunun həyatı və yaradıcılıq yolu» monoqrafiyası»** işinin (6 m.v., 2018-2019, icraçı: aparıcı elmi işçi, fil.f.d., dos. Şahbaz Musayev) 2018-ci il üçün nəzərdə tutulmuş mərhələsi- «Əhməd Ağaoğlunun həyatı, mühiti və şəxsiyyəti», «Əhməd Ağaoğlunun bədii-fəlsəfi nəsri» fəsilləri (3 m.v.) tamamlanmışdır.

**2.8.3. «Azərbaycan Xalq Cümhuriyyəti mühacirət nəsrində (İsmayıl Saryal və Əziz Alpoudun xatirələri əsasında)»** (2 m.v., 2018, icraçı: aparıcı elmi işçi (0,5 ş.v.), fil.f.d. Abid Tahirli) işi tamamlanmışdır.

**2.8.4. «Teymur Atəşlinin «Stalinqrad cəhənnəmində 95 gün döyüşən türk»** memuarı (çağdaş Azərbaycan dilinə uyğunlaşdırma)» (8 m.v., 2018, icraçı: kiçik elmi işçi, fil.f.d. Gülnar Qənbərova) işi yerinə yetirilmişdir.

**2.8.5. «Azərbaycan mühacirət ədəbiyyatında hekayə janrı (1920-30-cu illər)»** (0,5 m.v., 2018, icraçı: kiçik elmi işçi Aysel Əfəndiyeva) işi yerinə yetirilmişdir.

**Qrant haqqında məlumat**

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2015-ci ildə elan edilmiş əsas qrant müsabiqəsi çərçivəsində qalib gəlmiş «Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, inkişaf mərhələləri və problemləri» mövzusunda kompleks elmi tədqiqat layihəsinin icrası davam etdirilmişdir. Layihə çərçivəsində Azərbaycan mühacirət ədəbiyyatının müxtəlif janrlarına (poeziya, nəsr, dramaturgiya, publisistika, ədəbiyyatşünaslıq) və nəzəri problemlərinə dair araşdırmalar aparılmaqdadır. Həmin araşdırmaların nəticəsi kimi cari ildə 10 məqalə çap olunmuş, 4 məqalə isə çap ərəfəsindədir. Ümumilikdə isə, layihənin icrasına başlanandan 15 məqalə işıq üzü görmüşdür.

Layihənin rəhbəri fil.e.d., dos. Nikpur Cabbarlı 2018-ci il mayın 7-dən 16-dək Türkiyə Respublikasının İzmir şəhərində elmi ezamiyyətdə olmuş, Azərbaycan mühacirət ədəbiyyatının bir sıra qeyri-mətbu örnəklərini, mühacir yazarlarımızın həyat və fəaliyyətinə dair bəzi sənədləri əldə edərək, Bakıya gətirmişdir. Layihənin icraçısı fil.f.d. Abid Tahirlinin 2018-ci il aprelin 1-dən 7-dək İstanbula elmi ezamiyyəti də mövzunun araşdırılması baxımından əhəmiyyətli olmuşdur.

**Elmi konfranslar, sessiyalar**

Şöbə müdiri, fil.e.d., dos. Nikpur Cabbarlı Türkiyə Respublikasının Ankara Universitetinin Türk Tarix Qurumu ilə birgə cari il mayın 28-dən 31-dək Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirdiyi Beynəlxalq elmi simpoziuma qatılaraq, «Mirzə Bala Məhəmmədzadənin bədii yaradıcılığında milli istiqlal məfkurəsinin inikası» mövzusunda məruzə etmiş, eyni zamanda, simpoziumun «Fətəli Xan Xoyski» oturumunun həmsədri olmuşdur.

Aparıcı elmi işçi, (0,5 ş.v.), fil.f.d. Abid Tahirli iyunun 13-də Azərbaycan MEA M.Füzuli adına Əlyazmalar İnstitutunun təşkil etdiyi «Azərbaycan əlyazmaları dünya kitabxanalarında» mövzusunda III Beynəlxalq elmi konfransda «Abay Dağlının «Atatürk-cəbhələrdə və Çankayada» pyesi» mövzusunda məruzə etmişdir.

**Nəşriyyat fəaliyyəti**

Hesabat dövründə şöbə əməkdaşlarının aşağıdakı məqalələri işıq üzü görmüş və ya çap ərəfəsindədir:

Məqalələr:

**Jurnal və toplularda**

1. Nikpur Cabbarlı. Azərbaycan mühacirət nəsrinin tədqiqi probleminə dair.// Azərbaycan MEA-nın «Xəbərlər»i (humanitar elmlər seriyası). 2018, №1, s. 28-33.

2. Nikpur Cabbarlı. Mənim tanıdığım Yavuz Akpınar. // Türkiye ile türk dünyası arasında bir köprü: Yavuz Akpınar armağanı. Ankara:Bengü, 2018, s. 104-106.

3. Nikpur Cabbarlı. Azərbaycan mühacirət ədəbiyyatının tədqiqi və nəşrinin çağdaş durumu və qarşıda duran vəzifələr.// «XX əsrin əvvəllərindən bu günə Azərbaycan-Türkiyə ədəbiyyat və maarif münasibətləri» adlı panelin (25 aprel) materialları. Bakı, 2018 (çapa qəbul edilmişdir).

4. Nikpur Cabbarlı. Mirzə Bala Məhəmmədzadənin bədii yaradıcılığında milli istiqlal məfkurəsinin inikası.// Azerbaycan Demokratik Cumhuriyeti'nin Kuruluşunun 100. Yılı Şerefine ve Kurucu Başkanı Mehmet Emin Resulzade ve Arkadaşlarının Anısına Çağdaş Türklük Araştırmaları Sempozyumu'nun Bildirileri. Ankara, 2018 (çapa qəbul edilmişdir).

5. Şahbaz Şamıoğlu (Musayev). Mirzə Bala Məhəmmədzadənin mühacirət dövrü hekayə yaradıcılığı. // Azərbaycan MEA-nın «Xəbərlər»i (humanitar elmlər seriyası). 2018, №1, s. 40-45.

6. Şahbaz Şamıoğlu (Musayev). Əhməd Ağaoğlunun mühacirət dövrü bədii-fəlsəfi nəsrində mənəvi-əxlaqi problemlər. // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. 2018, №5, s. 263-272.

7. Şahbaz Şamıoğlu (Musayev). Əhməd Ağaoğlunun «Sərbəst insanlar ölkəsində» əsərinin ideyası və janr özünəməxsusluğu. //«Ədəbiyyat Məcmuəsi» (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri). 2018, XXXII cild, s. 86-94.

8. Şahbaz Şamıoğlu (Musayev). Azərbaycanlıların soyqırımı mühacirət nəsrində (Məmməd Altunbayın «Azadlığa uçan türk» memuarı əsasında). //«Azərbaycan ədəbiyyatşünaslığı» (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri). 2018, № 2 (çapdadır).

9. Şahbaz Şamıoğlu (Musayev). «Aldanmış kəvakib»: tarixi həqiqət və müəllif interpretasiyası. // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. 2018, № 1, s. 256-262.

10. Şahbaz Şamıoğlu (Musayev). M.F.Axundzadənin «Aldanmış kəvakib» povestində xalq obrazı. // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. 2018, № 2, s. 329-336.

11. Şahbaz Şamıoğlu (Musayev). Mirzə Fətəli Axundzadənin «Zəmanədən şikayət» əsərində anonim şəxsin kimliyinə dair. // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. 2018, №7, s. 228-234.

12. Şahbaz Şamıoğlu (Musayev). «Kavkaz» qəzetində imzasız bir yazı // AR Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. (Ali məktəblərarası elmi tədqiqat məcmuəsi). 2018, №1 (çapdadır).

13. Şahbaz Şamıoğlu (Musayev). Nizami Gəncəvi Məhəmməd Əli Rəsulzadənin tədqiqatında. // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. 2018, №16 (çapdadır).

14. Şahbaz Şamıoğlu (Musayev). The Researching of Mirza Fatali Akhundov`s literary heritage in the context of Eurasian Literature and the effects of Russian. // Milton Studies, Journal of the Theory & Criticism; Literature, Poetry. USA-2018, Volume 62, №1, 2018, Issne, 1, 2018, pp. 33-42 (Thomson Reuters).

15. Şahbaz Şamıoğlu (Musayev). The Mirza Fatali Ahundzade enlightenment concept. // WAY TO SCIENCE. Proceedings of XXIX International scientific conference. Morrisville, Oct. 6, 2018, pp. 40-46 (ABŞ).

16. Abid Tahirli. Azərbaycan mühacirət dramaturgiyasında Füzuli obrazı. Azərbaycan MEA-nın «Xəbərlər»i (humanitar elmlər seriyası). 2018, №1, s. 46-50.

17. Abid Tahirli. Abay Dağlının «Albay» pyesinin ideya-bədii xüsusiyyətləri.// Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), 2018, №1, s.29-36.

18. Abid Tahirli. Abay Dağlının «Dədə Qorqud» pyesində tarixilik və müasirlik.// «Ədəbiyyat Məcmuəsi» (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri). 2018, XXXII cild, s. 64-70.

19. Abid Tahirli. Abay Dağlının «Atatürk-cəbhələrdə və Çankayada» pyesi. // Azərbaycan MEA M.Füzuli adına Əlyazmalar İnstitutu. «Azərbaycan əlyazmaları dünya kitabxanalarında » mövzusunda III Beynəlxalq elmi konfransın materialları. Bakı: Elm və təhsil, 2018, s. 96-99.

20. Abid Tahirli. İstiqlala, istiqbala inamın bədii-publisistik təcəssümü (Əziz Alpoudun «Həyatımın hekayətləri» memuarı əsasında). //«Azərbaycan ədəbiyyatşünaslığı» (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri). 2018, № 2 (çapdadır).

21. Abid Tahirli. «Vətən sevgisi-«Vətən» cəmiyyəti». // «Ulduz» jurnalı, 2018, №1, s. 28-34.

22. Abid Tahirli. Ceyhun Hacıbəylinin həyat və yaradıcılığı // Azərbaycan Cümhuriyyəti: siyasi, ədəbi- kulturoloji müstəvidə (Məqalələr toplusu). Bakı: Nurlar, 2018, s. 170-191.

23. Abid Tahirli. Qəlb və qələmin tükənməyən söz, sənət mücadiləsi («Ulduz» jurnalının 2018-ci il iyul nömrəsinə bir nəzər), «Ulduz» jurnalı, 2018, №8, s. 3-8.

24. Abid Tahirli. Abay Dağlının həyat və yaradıcılığı. «Ulduz» jurnalı, oktyabr, 2018, №10, s. 36-40.

**Qəzet və saytlarda**

1. Nikpur Cabbarlı. Mühacirətşünaslığın uğur və perspektivləri: ədəbiyyatşünaslıq aspekti // «525-ci qəzet», 14 iyul 2018.

2. Nikpur Cabbarlı.Azərbaycan mühacirət ədəbiyyatı şöbəsi 5 ildə. // «Ədəbiyyat qəzeti», 9 noyabr 2018.

3. Abid Tahirli. O günləri xatırladan və yaşadan yazı.// modern.az, 20 yanvar 2018.

4. Abid Tahirli. Gənc nəsil, dünya da bilməlidir ki....// «Ədəbiyyat qəzeti», 24 fevral 2018.

5. Abid Tahirli. Xəyal qırıqlığı: Ceyhun bəy niyə «nuri-didə» ola bilmədi.// kulis.az, 13 mart; modern.az, 14 mart 2018.

6. Abid Tahirli. Böyük publisistdən nadir inci ( Mehdi Gəncəli ilə birlikdə).// «Ədəbiyyat qəzeti», 28 aprel. 2018.

7. Abid Tahirli. Prof.dr. Okan Yeşilotun Azərbaycan sevgisi.// modern.az, 1 may 2018. paralel.az, 1 may 2018.

8. Abid Tahirli. İhsan Özköşəli və onun «Bir ömrün döngələri» memuarı.// «525-ci qəzet», 9 may 2018.

9. Abid Tahirli. Vətən üçün Elçin.// «525-ci qəzet», 11 may 2018.

10. Abid Tahirli. «Sovqat» və Ceyhun Hacıbəyli yaradıcılığının 10 illiyi (Mehdi Gəncəli ilə birlikdə).// modern.az, 17 may 2018.

11. Abid Tahirli. C.Dağistaninin «Yövmi-təqdir»i (Mehdi Gəncəli ilə birlikdə).// «Ədəbiyyat qəzeti», 19 may 2018.

12. Abid Tahirli. Mədəniyyətimizin ziyası və ...düşmənləri (Mehdi Gəncəli ilə birlikdə). // kulis.az, 22 may 2018.

13. Abid Tahirli. Erməni tələsinin növbəti faciəsi, fəsadı və qurbanı.// «Ədəbiyyat qəzeti», 26 may 2018.

14. Abid Tahirli. Ədibin dünyanı gözəlləşdirmək missiyası.// kulis.az, 26 may 2018.

15. Abid Tahirli. Vaxt haqqında ballada (Elçinlə xəyali söhbət). kulis.az, 25 iyul 2018.

16. Abid Tahirli. İstiqlal mücadiləsi: tarixdən drama (Abay Dağlının «Malazgirtdən Sakaryaya» pyesi əsasında). // «Ədəbiyyat qəzeti», 12 avqust 2018.

17. Abid Tahirli. Abay Dağlının «Sakaryada 22-ci gün» pyesində Atatürk obrazı. // «Ədəbiyyat qəzeti»,18 avqust 2018.

18. Abid Tahirli. 15 Sentyabr 28 May qədər tarixi və müqəddəs gündür. // «Ədəbiyyat qəzeti», 15 sentyabr 2018.

**Elmi-təşkilati fəaliyyət**

Hesabat dövründə şöbənin 9 (o cümlədən, 6 protokollaşdırılan) iclası keçirilmişdir. Bu iclaslarda elmi tədqiqat işlərinin icrası vəziyyəti müzakirə edilmiş, bəzi başqa məsələlərə baxılaraq, uyğun qərarlar qəbul olunmuşdur.

Şöbə müdiri, fil.e.d., dos. Nikpur Cabbarlının İnstitut Elmi Şurasının, aparıcı elmi işçi, fil.f.d., dos. Şahbaz Musayevin isə İnstitut Elmi Seminarının işinə qatqıları olmuşdur.

**Plandankənar işlər**

Şöbə müdiri, fil.e.d., dos. Nikpur Cabbarlı:

1. İnstitutun Bakıdakı Yunus Əmrə İnstitutu ilə birgə təşkil etdiyi «XX əsrin əvvəllərindən bu günə Azərbaycan-Türkiyə ədəbiyyat və maarif münasibətləri» adlı paneldə (25 aprel) «Azərbaycan mühacirət ədəbiyyatının tədqiqi və nəşrinin çağdaş durumu və qarşıda duran vəzifələr» mövzusunda məruzə etmişdir.
2. İnstitut Elmi Şurasının Türkiyənin görkəmli ədəbiyyatşünas alimi, prof.dr. Yavuz Akpınarın 70 illik yubileyinə həsr edilmiş xüsusi iclasında (23 aprel) yubilyarın elmi fəaliyyətinə dair məruzə etmişdir.
3. Azərbaycan Televiziyasının «Yaddaş» verilişində (iyul) «Azərbaycan Xalq Cümhuriyyəti ideyaları mühacirət ədəbiyyatında» mövzusunda çıxış etmişdir.
4. İnstitut Elmi Şurasının 16 iyul 2018-ci il tarixli iclasında «Azərbaycan mühacirət ədəbiyyatı şöbəsi 5 ildə» mövzusunda məruzə etmişdir.

Aparıcı elmi işçi, fil.f.d. Abid Tahirli Azərbaycan Televiziyasının «Mədəniyyət» kanalının «Buta» verilişində Ceyhun Hacıbəylinin «Seçilmiş əsərləri» (19 yanvar) və «Mətbuat: millətin dili, gücü və güzgüsü» kitabı haqqında (25 yanvar), Azərbaycan radiosunun «Şəbəkə» verilişində isə «Ceyhun Hacıbəylinin bədii-publisistik irsi» (11 fevral) mövzusunda çıxış etmişdir.

**Kadr potensialı**

Noyabrın 1-dək şöbənin elmi personalı 5 nəfər idi. Fil.f.d., dos. Şahbaz Musayevin başqa şöbəyə keçirilməsi, fil.f.d. Abid Tahirlinin isə işdən azad edilməsi bizdə acı təəssüf hissi doğurmuşdur. Hazırda şöbədə 1nəfər filologiya üzrə elmlər doktoru, 1 nəfər filologiya üzrə fəlsəfə doktoru və 1 kiçik elmi işçi çalışır. 1 nəfərin dosent elmi adı vardır.

1 nəfər Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatıdır.

Cari ildə şöbənin kiçik elmi işçisi Aysel Əfəndiyeva 5716.01-«Azərbaycan ədəbiyyatı» ixtisasında fəlsəfə doktoru hazırlığı üzrə əyani doktoranturaya qəbul edilmişdir.

*Hesabat şöbənin 16 noyabr 2018-cı il tarixli iclasının (protokol №6) qərarı ilə təsdiq edilmişdir.*

**Şöbə müdiri,**
**filologiya üzrə elmlər doktoru, dosent,**
**Azərbaycan Respublikasının**
**Dövlət Mükafatı laureatı:** **N.M.Cabbarlı**

**16.11.2018**

***Dərc olunmuş mühüm nəticələr və nailiyyətlər***

| *Azərbaycan mühacirət ədəbiyyatı şöbəsi* | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İşçinin adı, soyadı, elmi dərəcəsi | Kitablar | Monoqrafiyalar | Məqalələr | | Tezislər | o cümlədən xaricdə | | | | | Dərsliklər və elmi-kütləvi nəşrlər | Tərtib işləri | Bədii əsərlər | Tərcümə işləri |
| | | | Məcmuə | Qəzet | | Kitablar | Monoqrafiyalar | Məqalələr | Tezislər | İmpakt faktorlu jurnallarda məqalələr | | | | |
| Fil.e.d., dos. Nikpur Cabbarlı | — | — | 6 | 2 | — | – | — | 2 | — | — | — | — | — | — |
| Fil.f.d., dos. Şahbaz Musayev | — | — | 11 | — | — | – | — | 2 | — | 1 | — | – | – | — |
| Fil.f.d. Abid Tahirli | — | — | 9 | 16 | — | – | — | — | — | — | — | – | — | — |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| Şöbə üzrə cəmi: | — | — | 26 | 18 | — | – | — | 4 | — | 1 | — | — | — | — |

***Dərc olunmuş mühüm nəticələr və nailiyyətlər***

| | Kitabların, monoqrafiyaları n | kitabl | Monoqraf | Tezislər | Məqalələr | o cümlədən xaricdə dərc olunmuşdur | Dərsli | Elmi işçilər |
|---|---|---|---|---|---|---|---|---|

| *Azərbaycan mühacirət ədəbiyyatı şöbəsi* | | | | | | Kitablar | Monoqrafi yalar | Məqalələr | Tezislər | Faktorlu jurnallarda dərc olun-muş mə-qalələr | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 44 | _ | — | — | 44 | — | — | 4 | _ | 1 | — | 16 |

**Qrantlara əsasən görülən işlər**

| Şöbənin adı | Alınmış qrantların ümumi sayı | o cümlədən xarici ölkə alimləri ilə birgə alınan qrantların sayı | Qrantın məbləği (manat) | Qrant hansı fond və təşkilatdan alınmışdır |
|---|---|---|---|---|
| *Azərbaycan mühacirət ədəbiyyatı şöbəsi* | 1 | – | 100.000 | Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu |
| | | | | |
| | | | | |
| Bölmə üzrə cəmi: | | | | |